BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

*№1* *Humanitar elmlər seriyası* *2012*

**UOT 94 (479.24)**

# İSLAM TƏRİQƏTLƏRİNƏ CƏMİYYƏTDƏ MÜNASİBƏT MƏSƏLƏSİNİN ŞİMALİ AZƏRBAYCAN BƏDİİ ƏDƏBİYYATINDA ƏKSİ (XIX ƏSRİN II YARISI)

**S.A.İSMAYILOVA**
***Bakı Dövlət Universiteti***
***Sevdaismayılova@rambler.ru***

*Məqalədə XIX əsrin son rübündə Azərbaycan cəmiyyətində milli oyanışın əlamətlərindən biri –"İttihadi-islam"ın XIX əsrin II yarısı Şimali Azərbaycan bədii ədəbiyyatında əksi şərh edilir. Müxtəlif təriqətlərin islamı daxildən zəiflədərək xalqın ümumi birliyinə xələl gətirməsi, milli-mədəni dirçəlişin qarşısını alması, bu təriqətlərdən biri olan babiliyin Şimali Azərbaycanda da yayılması, babiliyə qarşı mübarizə məsələlərinin Seyid Əzim Şirvaninin bədii yaradıcılığında əksi araşdırılır.*

**Açar sözlər:** milli oyanış, islam təriqətləri, babilik, bədii ədəbiyyat, S.Ə.Şirvani

XIX əsrin son rübü ictimai-siyasi tariximizə milli oyanış, milli-azadlıq hərəkatının erkən dönəmi kimi daxil olmuşdu. Ziyalılar arasında özünə yer tapan məsələlərdən biri də islamda təfriqəyə son qoymaq, məzhəb ayrılıqlarına qarşı mübarizə etmək idi. Çarizm müsəlmanların milli-azadlıq mübarizəsində islamın böyük rolunu dərk edərək müxtəlif vasitələrlə yeni mərhələyə keçməkdə olan Azərbaycan cəmiyyətinə təsir göstərir, məzhəb ayrılıqlarını gücləndirir, təriqətlərin inkişafına şərait yaradır, milli-mədəni dirçəlişin qarşısını almağa çalışırdı.

XIX əsrin ortalarında İranda, o cümlədən Cənubi Azərbaycanda islam aləmini böyük bir təlatümə salan dini təfriqə – babilik meydana çıxır. Bu təriqət XIX əsrin əvvəllərində İranda mövcud olan şeyxilər adlı təriqətin əsasında yaranmışdı. Şeyxilər təriqətinin banisi məşhur şiə kəlamçı əxsalı (Bəhreyn) şeyx Əhməd Zeynəddin oğludur (1744-1828). Şeyxilər dinin və hədislərin əsaslarının yeni izahlarını verirdilər (1, 93). Bu isə bir sıra hallarda ortodoksal islama zidd idi. Şeyx əxsai Əhməd belə hesab edirdi ki, bütün kainat ilahi başlanğıcla doludur və allahın atributları allahın özünün seçdiyi imam, peyğəmbər, allahla insanlar arasında olan vasitəçilərdə – gizli imambablarda təzahür edir (9, 203). Şeyxilər onu «şie-ye kamil» adlandırdılar (7,

87-90). Şeyxilərin son başçısı Seyid Kazımın vəfatından sonra şirazlı Seyid Əli Məhəmməd (9.IX.1820-19.VI.1850) özünü təriqətin başçısı elan edir. Məhz şeyxilik əqidəsi babiliyin əsasında durur (10,30). Seyid Əli Məhəmməd yeni bir təriqətin – babiliyin əsasını qoymuşdur. O öz dini və siyasi görüşlərini «Bəyan» və «Yusif» surəsinə izahat» adlı əsərlərində şərh etmişdir. Babilik təlimində iki cəhətin bir-birinə qovuşması görünür: dini və siyasi. Babın fikrincə, bəşəriyyət bir-birini əvəz edən dövrlər üzrə inkişaf edir, yaranan yeni dövr özündən əvvəlki dövrün qayda-qanunlarını qəbul etmir, özü də yeni dövrün qayda-qanunlarını yeni peyğəmbər gətirməlidir. Quran və şəriət qanunları artıq köhnəlmiş və yeni dövrün qarşıya qoyduğu tələblərə cavab vermir. İndi onların əsasında görülən hər bir iş ancaq ilahi kəlamların forma və hərfinə riayət etməkdir ki, bu da yeni dövrün tələblərinə cavab vermir. Hakimiyyəti ələ keçirən hakimlər və ülәmalar şəxsi varlanmaq naminə qanunun və dinin ancaq formasını gözləyir, onun mahiyyətinə varmırlar. Odur ki, qanunlar yenisi – «Bəyanla» əvəz olunmalıdır, yeni qayda-qanunu yeni dövrün peyğəmbəri gətirməlidir, yeni peyğəmbər Mehdi zühur etməlidir (7, 87-92).

Seyid Əli Məhəmməd 12 iyun 1844-cü ildə özünü Bab (sonuncu imam Mehdi ilə xalq arasında vasitəçi) (7,93), 1848-ci ildə isə həbsdə olarkən özünü Mehdi elan etdi (9, 217). O, irəli sürdüyü fikirlərlə yeni bir təriqətin əsasını qoymuşdur (2, 41).

Seyid Əli Məhəmmədin təbliğatında sırf dini məqamlarla birlikdə ictimai-siyasi məqamlar da vardı. Belə ki, Seyid Əli Məhəmməd nitqlərində dünyanın ədalətli olmadığı və zülmün baş alıb getdiyini söyləyirdi.

Şah hökuməti ölkədə şiə ruhaniliyinin nüfuzunu sarsıtmamaq üçün ilk dövrdə babiliyə qarşı kəskin mövqe tutmurdu. Lakin 1852-ci ildə Nəsrəddin şaha sui-qəsd cəhdindən sonra onlara münasibət kökündən dəyişir, babilərə qarşı kəskin mübarizə xətti götürülür, onlara amansız divan tutulmağa başlanır (8, 171).

Babilik hərəkatının islahatçı qanadı bəhailik adı ilə vətəndaşlıq qazanmışdı. Bəhailik təlimi Mirzə Hüseyn Əlinin (1817-1892) adı ilə bağlıdır. İran ictimai-dini həyatında o, Bəhaulla – «Allahın parıltısı» ləqəbi ilə məşhurdur. «Bəhaulla öz ictimai və dini görüşlərini «Kitabi-əqdəs» («Ən müqəddəs kitab») adlı proqram xarakterli əsərində şərh etmişdir. Onun iddialarına görə, «Kitabi Əqdəs», həm «Quran»ı, həm də «Bəyan»ı əvəz edə biləcəkdir (1,43). Nəsrəddin şaha 1852-ci il 16 avqustda edilən sui-qəsddən sonra o, İrandan mühacirət etməli olur. 22 aprel 1863-cü ildə Bağdad şəhərində özünü Bab, yeni peyğəmbər elan edir (9, 229). Bəhai təliminə görə allaha itaət etməyin mahiyyətini təşkil edən həqiqət müəyyən sənətkarlıq, yaxud sənaye və buna bənzər başqa işlərlə məşğul olmaqdan ibarətdir (3,23).

Bəhailər qeyri-islami dinlərə rəğbətinə görə şiə və sünni müsəlmanların nifrətini qazanmışdılar və onlar bəhailiyi qeyri-islami təriqət sayırdılar (3,26).

Bəhailər ənənəvi islam mərasimlərini və ayinlərini tamamilə rədd etdiklərindən, məscidlərdə yox, özlərinin xüsusi təbliğat mərkəzlərində – klublara oxşar mərkəzlərdə toplaşırdılar.

Məsələnin bir cəhətini xüsusi olaraq qeyd etmək lazımdır ki, ortodoksal şiə ruhaniliyi babilik hərəkatı ilk dövrlərində şeyxlik ilə əlaqədar olduğu üçün ona şiəliyin bir qolu kimi baxdığından, babiliyə qarşı kəskin mübarizə xətti götürməmişdir. Lakin babilikdən törəyən bəhailik təliminin dünya miqyasına çıxması ilə həm babiliyə, həm də bəhailiyə qarşı şiə ruhaniliyinin mövqeyi kəskin dəyişir. Hər iki təriqət islamın təqib etdiyi bidətçi təlimlər sırasına daxil edilir (9, 225).

İranda Bəhaullahın özünü peyğəmbər elan etməsi ərəfəsində onun tərəfdarları öz canlarını ölümdən qurtarmaq üçün qonşu ölkələrə, o cümlədən Şimali Azərbaycana axışıb gəlirlər və Cənubi Azərbaycana yaxın sərhəd yerlərində - Naxçıvanda, Ordubadda yerləşirlər. O zamandan bəhailik Şimali Azərbaycanda Naxçıvan, Ordubad ilə yanaşı, başqa şəhərlərdə, xüsusilə Bakıda yayılmağa başlayır (4, 2000.24-28,VI,8).

Rusiya rəsmi dairələri islamiyyətdə mövcud olan təriqətlərə, məzhəblərə və cərəyanlara himayə siyasəti yeridirdi. Çünki bu yolla məzhəblər arasındakı münaqişələri dərinləşdirmək və islamı daxildən zəiflətmək mümkün idi. Azərbaycanda yaşayan babilərin köməyi ilə babilik və bəhailik təriqətlərinin geniş yayılmasına rəsmi hökumət dairələri hər vasitə ilə yardım edirdilər (5,60).

Daxili işlər nazirliyinin Ruhani İşlər Departamentinin Nazirlər Şurasına yazdığı 1901-ci il tarixli məktubunda deyilirdi: «Bakı şəhərində yaşayan babilər 1901-ci ildə mülki işlər üzrə Qafqaz baş rəisliyindən həmin şəhərdə ibadət evi açmaq üçün icazə vermənizi xahiş etmiş və onların xahişi haqlı olaraq yerinə yetirilmişdir… İrandan Qafqaza gəlmiş olan babilərin təlimi Məhəmmədin qanununu əqləuyğun və maarifçicəsinə şərh edir, bu qanundan köhnə, fanatik və yalan nə varsa hamısını atır. Ümumiyyətlə, bunun hamısı xristianlıq üçün əlverişlidir. Cahil, inkişaf etməmiş müsəlmançılıq mühitində yararlı və arzu olunan vətəndaşlar yaradır». Elə həmin sənəddə babilərin Bakı ilə yanaşı, Şamaxıda Cənubi Qafqazın başqa quberniyalarında da yaşadıqları göstərilir (5,60).

Şirvanda babilik təliminin yayılması S.Ə.Şirvaninin «Şamaxı babiləri haqqında» şeirində öz əksini tapmışdır. Şair babiliyin yayılmasını böyük ürək ağrısı ilə qeyd edir:

Bir neçə fasiqü mərdudi-əbəd, müfsid olan
Hərçi mərc eylədilər məmləkəti – Şirvani (6, 25).

S.Ə.Şirvaninin «Şamaxı babiləri haqqında» xüsusi böyük həcmli şeir yazmasının əsas səbəbi çox güman ki, babilik hərəkatının görkəmli nümayəndələrindən olan Seyid Babın 1864-cü ildə Həştərxandan Bakıya, oradan isə Şamaxıya gəlişi olmuşdur.

Seyyidi bab o gündən ki, mürəxxəs olunub,

Mənzil etmişdi, gəlib, xitteyi-Hactərxani,
Şuru düşmüşdü onun məmləkəti- Şirvanə,
Babilər olmuş idi aşiqi-sərgərdani,
… Hicrətin min iki yüz səksən ikiydi sani (M.1864-S.İ.)
Çıxdı nagəh bu xəbər kim, Bakıdan ağa gəlir,
Çıxdı pişvazına bu qövmi-Əbu Sufyanı (6,25).

Mirzə Kazımbəy Bab və babilərdən bəhs edən Cənubi Qafqazda babiliyi yaymaqda təqsirkar bilinərək 1853-cü ildə Smolensk şəhərinə sürgün edilmiş Ordubad sakini Mir Seyid Əbdül Kərim oğlundan söhbət açır, onunla əlaqə yaratdığını və ondan 2 məktub aldığını göstərir. Birinci məktub 4 dekabr 1860-cı, ikinci məktub isə yanvar 1861-ci ildə yazılmışdı. Məktublarda Mir Seyid Əbdül Kərim oğlu babiliyin əsas müddəaları haqda söhbət açır, onun məziyyətlərini göstərir. Lakin Mir Seyidin cavabları Mirzə Kazım bəyi qane etmir, çünki müəllif ilkin babilikdə xristianlığa doğru addım, daha doğrusu, xristianlığa əsaslanma meyllərini axtarırdı. Mir Seyid Əbdül Kərimin məktublarında isə bu problemə toxunulmurdu. Mirzə Kazım bəy Mir Seyid Əbdül Kərimin taleyindən söhbət açır, bu söhbətdən məlum olur ki, Mir Seyid Əbdül Kərim Smolensk şəhərində 11 il sürgündə qaldıqdan sonra azadlığa buraxılmış, Həştərxanda məskunlaşmışdı. Çox güman ki, şerdə «Seyyidi-Bab» adı ilə təqdim olunan şəxs məhz Mir Seyid Əbdül Kərim oğludur (8, 200 - 208).

S.Ə.Şirvani Şirvanda babilik haqqında söhbətə keçməzdən əvvəl babilik hərəkatının tarixinə çox yığcam şəkildə toxunur. O, babilik hərəkatının banisi Seyid Əli Məhəmmədin adını şeirdə çəkməsə də, onun 1848-ci ildə özünü Mehdi elan etməsini xüsusilə qeyd edir və bunu bir növ lağa qoyur:

«Biri Təbrizdə çıxdı ki, mənəm Mehdiyi əsr» (6,27).

S.Ə.Şirvani babilərin İran şahı Nəsrəddin şaha 1852-ci ildə sui-qəsd etmələri məsələsinə də toxunur:

Biri çıxdı ki, hidayət eləsin Tehrani.
Nəsirəddin şahı atdı neçəsi güllə ilə,
Öldürüblərdi ədavətlə şəhi-İrani (6,27).

S.Ə.Şirvani Şirvanda babilik tərəfdarlarının ictimai tərkibi məsələsinə toxunur, onları sadalayır və ayrı-ayrılıqda səciyyələndirir:

…Nə köpək oğlu köpəkdir ki, o qəssab Bağır,
Çıxıban küçədə təfsir eləyib fürqani (6,29)…
Birisi məşhədi Cəfərdi, Xorasan Lotusu,
Ki, salır gündə İmamlı içinə qovğanı,
Biri sərrac Məciddir ki, o da babı olur (6,28).

Qeyd edildiyi kimi, bəhailər dini mərasim və ayinlərini ənənəvi islam dini məbədlərində-məscidlərdə deyil, xüsusi evlərdə, bəhai qruplarının rəhbərlərinin yaşayış mənzillərində keçirirdilər. S.Ə.Şirvani şeirində Şamaxıda bu cür mərasim ocaqlarının mövcudluğundan söhbət açır:

Müxtəsər kim Ağalarov evinə etdi nüzul,

Neçə kəs olmuş idi ol qapının dərbani.
Qoydular ad ona kim, bu kişi həzrət Əlidir,
Bu gəlibdir ki, hidayət eləsin dünyanı (6,26).

S.Ə.Şirvani Şirvanda babilərin cəmləşdiyi əsas yaşayış məskənlərini də sadalayır:

Sarıtorpaqların hüccəti Eldar oğlu,
Qələbazar eləsin öz başına samanı.
… Birisi Məşhədi cəfərdi, Xorasan Lotusu –
Ki, salır gündə İmamlı içinə qovğanı (6,28).

Qeyd edildiyi kimi, istər babilər, istərsə də bəhailər Quranı artıq köhnəlmiş, vaxtı keçmiş bir kitab sayır, onun «Bəyan» və ya «Kitabi-Əqdəs» ilə əvəz edilməsini qəbul edir və Qurana qarşı saygısızlıq göstərirdilər. Şirvan babiləri də öz həmfikirləri kimi, Quranı öz bildikləri kimi təfsir edirdilər. S.Ə.Şirvani Şamaxı babilərinin belə küfr hərəkətlərini təsvir edir.

Babilik və bəhailik təriqətlərinin Şirvanda fəaliyyəti, sözsüz ki, ortodoksal şiə ruhaniliyi və islam tərəfdarlarının böyük narazılığına səbəb olurdu, yerli əhali içərisində münaqişələrə gətirib çıxarırdı. S.Ə.Şirvaninin şeirində bu danılmaz həqiqət öz əksini tapır, yeni təriqətlərin Azərbaycanda mövcud olan ənənəvi şiə təriqətinə – «məzhəbi-isna əşəri»yə qarşı durduğu göstərilirdi:

Nəçidir axır o babi, nə şəfa sahibidir,
Nəçidir ki, çəkə əl, gözlü edə əmani?
Heyf səd heyf ki, bu məzhəbi-isna əşəri
Zaye etdi bu zinazadələrin dastani!
Bir deyən yoxdu ki, ey müfsidi-mərhudi-əbəd,
Nə salıbsız bu qədər məmləkətə qovğanı (6, 26).

Şirvanda babiliyin yayılmasına qarşı mübarizə aparan qüvvələrin də olduğu şeirdə öz əksini tapıb.

Əcəb oğlan idi o Kərbəlayi İsmail,
Həqqi onda yox idi bir əməli-nəfsani,
Bilməzdim noldu səbəb axırı oldu məlun.
Nə səbəb oldu ki, bu tutdu rəhi-şeytani?...
Əhli-dalan ayırıb sovça, kasasın ondan,
Qovdular cümləsi anın başına qırxani,
Afərin əhli-dalan yaxşı müsəlmanlar imiş,
Filhəqiqət, hamıdan yaxşı imiş iymani (6,28).

S.Ə.Şirvaninin bədii yaradıcılığında məzhəb qarşıdurmaları, islama təfriqə salan təriqətlər tənqid edilir. O, belə hesab edirdi ki, İslamda təfriqə Azərbaycan xalqının ümumi birliyinə zərbədir, onun inkişafı yolunda maneədir. Bu dövrdə artıq Azərbaycanda «ittihadi-islam»ın irəli sürdüyü əsas prinsip – müstəmləkəçiliyə qarşı azadlıq mübarizəsində xalqın özünün birliyi təbliğ edilirdi.

## ƏDƏBİYYAT

1. Bünyadov Z. Dinlər, təriqətlər, məzhəblər (Arayış kitabı). Bakı: Azərbaycan, 1997, 288 s.
2. Cənubi Azərbaycan tarixinin oçerki (1828-1917). (Ə.S.Sumbatzadənin redaktəsi ilə). Bakı: Elm, 1985, 316 s.
3. Əhədov A. Azərbaycanda islamın modernləşdirilməsi. Bakı: Azərnəşr, 1995, 158 s.
4. Əhmədbəyli S. Yer - bir dövlət, bütün insanlar – onun vətəndaşlarıdır. Bəhailər belə hesab edirlər. «7 gün» qəz., Bakı, 2000, 24-28 iyun.
5. Mustafayev Q. XX əsrin əvvəllərində Azərbaycanda islam ideologiyası və onun tənqidi. Bakı: Maarif, 1973, 296 s.
6. Şirvani S.Ə. Seçilmiş əsərləri. 3 cilddə, II c., Bakı: Azərb. SSR EA nəşriyyatı, 1969, 650 s.
7. Иванов М.С. Антифеодальные восстания в Иране в середине XIX в. М.: Наука, 1982, 248 с.
8. Казембек М. Баб и бабиды: религиозно-политические смуты в Персии в 1844-1852 гг. // Избранные произведения. Баку: Элм, 1985, 422 с.
9. Кузнецова Н.А. Иран в первой половине XIX в. М.: Наука, 1983, 266 с.
10. Талипов Н.А. Общественная мысль в Иране в XIX – начале XX в. М.: Наука, 1988, 295 с.

## ОТРАЖЕНИЕ В ХУДОЖЕСТВЕННОЙ ЛИТЕРАТУРЕ СЕВЕРНОГО АЗЕРБАЙДЖАНА II ПОЛОВИНЫ XIX ВЕКА ВОПРОСА ОБ ОТНОШЕНИИ К ИСЛАМСКИМ СЕКТАМ

**С.А.ИСМАЙЛОВА**

### РЕЗЮМЕ

В статье раскрывается отражение вопроса об отношении к исламским сектам в Азербайджанском обществе как одним из признаков национального возрождения «иттихади-ислам» (исламское единение) в художественной литературе Северного Азербайджана II половины XIX века.

Рассматриваются произведения Сеид Азим Ширвани и художественное отражение в них действий разных сект ислама препятствующих единению народа и национально-культурному возрождению, распространение одной из этих сект бабизма в Северном Азербайджане и борьба против этих сект.

**Ключевые слова:** национальное возрождение, исламские секты, бабизм, художественная литература, С.А.Ширвани

## REFLECTION OF RELATIONS TO ISLAMIC SECTS IN THE LITERATURE OF NORTHERN AZERBAIJAN IN THE II HALF OF THE XIX CENTURY

**S.A.ISMAYILOVA**

### SUMMARY

The article studies reflection of relations to Islamic sect in the Azerbaijan society as indication of national rennaisance “Ittikhadi-Islam”in the Islamic literature of Northern Azerbaijan in the second half of the XIX century.

The author analyzes literary works of Seid Azim Shirvani and artistic reflections in his works of various Islamic sects obstacling people’s union and national – cultural rennaisance, expansion of one of these sects, Babysm in Northern Azerbaijan and the struggle against these sects.

**Key words:** national rennaisance, Islamic sect, Babysm, literature, S.A.Shirvani